# Azərbaycan - İtaliya münasibətləri uğurla inkişaf edir

## Prezident İlham Əliyev İtaliyanın "Leonardo" şirkətinin direktorlar şurasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də İtaliyanın "Leonardo" şirkətinin direktorlar şurasının sədri Stefano Pontekorvonu qəbul edib.**

→ 2

# Azərbaycan - İtaliya münasibətləri uğurla inkişaf edir

## Prezident İlham Əliyev İtaliyanın "Leonardo" şirkətinin direktorlar şurasının sədrini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Stefano Pontekorvo İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni və müdafiə naziri Quido Krosettonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Nazirlər Şurasının Sədrinə və müdafiə nazirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla İtaliya arasında səmərəli tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, hərbi və mülki sahələrdə dünyanın ən qabaqcıl şirkətlərindən biri olan "Leonardo" şirkəti ilə əməkdaşlıq məsələləri müzakirə olundu.

Qeyd edək ki, İtaliyanın müdafiə məhsulları istehsal edən ən böyük şirkəti olan "Leonardo"nun mülki sektorda da maraqlı texnologiyaları, o cümlədən "Smart city" texnologiyası, süni peyk istehsalı və aerokosmik xidmətlər, böyük şəhərlərin nəqliyyat sistemlərinin idarə edilməsi də var. Şirkətin rəhbər şəxsləri bu sahələrdə də ölkəmizə faydalı ola biləcək əməkdaşlıqla bağlı təşəbbüslərini ifadə etdilər.